# OĞLUM VƏTƏN, BAYRAQ UĞRUNDA ŞƏHİDLİYƏ UCALDI...

**(Əvvəli ötən sayımızda)**

*Vətən müharibəsi şəhidi gizir Emil Vaqif oğlu İsgəndərovun (5 avqust 1990-cı il Sumqayıt şəhəri- 7 noyabr 2020-ci il Şuşa rayonu) anası Tənzilə xanım ilə müsahibə.*



- Vətən müharibəsinin gedişi zamanı qəhrəmanımızla necə əlaqə saxlayırdınız?

- Vətən müharibəsi başlayandan sonra Emillə əsasən telefonda mesaj yazmaqla əlaqə saxlayırdıq. Vaxtı olanda özü də zəng də edirdi. Sonuncu danışığımız 30 oktyabr 2020-ci ildə, saat 11:30-da oldu. Onda da hal-əhval tutduqdan sonra dedi ki, uşaqlardan muğayat olun, məndən narahat olmayın. Sonra isə danışıq əlaqəmiz kəsildi. Dedim ki, ola bilsin, sonra zəng edər və ya mesaj yazar, amma həmin gündən mən onunla əlaqə saxlaya bilmədim. Oktyabrın 31-də isə axşam zəng edəndə atasına deyib ki, biz Şura xalagilə gedirik, narahat olmayın, bir-iki günə Şura xalagildən sizə yazacağam. O gündən əlaqə saxlaya bilmədik. Sonradan mən bildim ki, atası ilə danışanda "Şura xala" dedikdə Şuşaya getməklərini, Şuşa uğrunda döyüşüb Şuşanı azad edəcəklərini nəzərdə tuturmuş. Lakin atası narahat olacağımı nəzərə alaraq onun Şuşaya getməsi barədə həmin vaxt mənə deməmişdi.

- Emilin şəhid olma xəbərini haradan və necə öyrənə bildiniz?

- Emillə əlaqə saxlaya bilmədiyimiz müddətdə yuxum qaçmışdı, istəsəm də narahatlıqdan yata bilmirdim, bir balaca yuxulayanda isə qarışıq yuxular görürdüm, birdən də Emili görürdüm yuxumda, o, gülümsəyirdi. Artıq Emillə əlaqəmizin kəsilməsindən 5 gün keçirdi. Gün keçdikcə də daha çox narahat olurduq. Çünki bilirdik ki, Emilin vəziyyəti yaxşı olsa, heç vaxt bizi məlumatsız, xəbərsiz buraxmazdı. Atası hər yerə məlumat vermişdi və demişdi ki, Emildən bir xəbər tuta bilmirik. 7 noyabrda tanımadığımız gənclər bizim köhnə məhəlləyə gəlib bizi soruşublar, deyiblər ki, Qubadakı hərbi hissədən gəlmişik. Hərbçi yoldaşımız Emil şəhid olub. Qonşular deyib ki, ailəsi axtarır, amma hələ nə isə dəqiq məlumat yoxdur. 11 noyabrda atası Emili axtarmağa getdi. Mənə də dedi ki, hərbi komissarlığa telefonla danışmaq üçün gedir. Sonradan bilmişəm ki, o, Emilin şəhid olduğunu bilib, lakin mənə düzünü deməyib. Mənim Emildən başqa Əli və İsgəndər adlı iki oğlum da var. Əli də 44 günlük Vətən müharibəsində döyüşürdü. Emil barədə birinci olaraq Əliyə zəng edib soruşublar ki, siz şəhid Emil İsgəndərovun qohumusunuz? Əli də deyib ki, Emil mənim qardaşımdır, amma o, şəhid olmayıb, Şuşada döyüşür. Lakin sonradan bildiyimə görə günorta vaxtları atasına zəng edib deyiblər ki, oğlunuz Emil şəhid olub, ona görə də məlumatı dəqiqləşdirmək üçün atası özü gedib. 11 noyabr 2020-ci ildə saat 19:30-da Vaqifdən zəng gəldi. Telefonu mən açdım. O, soruşdu ki, evdə kim var? Dedim ki, özümüzdən başqa heç kəs yoxdur. Mən soruşdum ki, Vaqif, Emildən nə xəbər var, salamatçılıqdır? Dedi, Vətən sağ olsun. Başa düşdüm ki, artıq Emil həyatda yoxdur. Kaş ki həmin an mən də ölərdim... Demə, Vaqif özü Emilin şəhid olduğunu bilirmiş, lakin mənə deməyə ürək etməyib. Atası Emilin nəşini gecə biz ağlamayaq deyə məscidə qoyubmuş. Emil mənim üçün hər şey idi. Noyabrın 12-si səhər Emilin Azərbaycan bayrağına bükülmüş tabutunu evə gətirdilər. Tabutu evdə yerə qoyanda işıqlar söndü. Əl atıb işığı yandırmaq istədikdə otağın lampası partlayaraq şüşələri tabutun üstünə səpələndi. Fikirləşdim ki, balamın işığı söndü, onunla birlikdə evimin də işığı söndü... Sonradan Emilin yanında olan döyüş yoldaşları bizə dedilər ki, Emil qolundan yaralanıbmış. Özü də bərk qızdırmalıymış. Deyiblər ki, sən qayıt, müalicə al, bu vəziyyətdə döyüşə bilməyəcəksən. Lakin o, qayıtmayıb, Şuşada döyüşünü davam etdirib və orada da şəhadətə qovuşub. Gözümüzün önündə Şuşa fatehi Emilimin üçrəngli bayrağımıza bükülmüş tabutu dayanmışdı. Birdən hələ uşaq vaxtlarından Emilin bayrağı çox sevdiyini xatırladım. Özümə təskinlik verib qürurlandım ki, oğlum vətən uğrunda, bayraq uğrunda Şəhidlik zirvəsinə yüksəldi, bizə bildirməsə belə bəlkə də elə onun ən ülvi arzusu bu imiş, o ən ülvi arzusuna çatdı... Vətən uğrunda, bayraq uğrunda mübarizə aparmaq, torpaqlarımızı düşmən tapdağından azad etmək, bu yolda şəhid olmaq və sevdiyi bayrağa bürünüb vətən torpağının köksünə köç etmək...

Ürəyiniz rahat olsun, təskinlik tapsın, Tənzilə ana! Vətən uğrunda, bayraq uğrunda Şəhidliyə yüksələn qəhrəman oğlunuz Emilin və onunla birgə eyni fədakarlığı göstərən bütün Şəhidlərimizin heç birinin qanı yerdə qalmadı! Bu gün Şəhidlərin uğrunda can verdikləri üçrəngli bayrağın üç rənginin işığında Qarabağı tamamilə azad edən Ordumuz gözünü aydın, işıqlı sabaha, cənublu, şimallı, Zəngəzurlu, Göyçəli, İrəvanlı, tarixi torpaqlarımızın azad olunacağı günlərə dikib... O gün yaxındadır və o gün bizim haqlı qələbəmiz üçün Emil qardaşımın və onun şəxsində bütün Şəhidlərimizin ruhu bizə kömək olacaq!

Onu da qeyd edim ki, Vətən müharibəsi şəhidi gizir Emil Vaqif oğlu İsgəndərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə və Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15.12.2020-ci il və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları, həmçinin "Hərbi xidmətdə fərqlənməyə görə " 3-cü dərəcəli medalla ilə təltif edilmişdir.

Şəhid Emil İsgəndərov ailəli idi, İbrahim və Nicat adlı iki övlad atası idi.

Müsahibə üçün Tənzilə anaya təşəkkür edir, Allahdan ona səbir, qəhrəman oğlu, şəhid Emil İsgəndərova və bütün şəhidlərimizə rəhmət diləyirəm! Amin! Şəhidlər ölməz, Vətən bölünməz! Torpaq, uğrunda ölən varsa, Vətəndir!



**Sevindik Nəsiboğlu**
**AJB-nin üzvü**